# "Bir aşk hikayesi" bitdi...

## Türk musiqi sənətinin böyük ustadı Kayahan bu gün son mənzilə yola salınacaq



**Türkiyədə və eləcə də Azərbaycanda çox sevilən Kayahan dünən səhər saatlarında dünyasını dəyişdi. Türk musiqi sənətinin böyük ustadı müalicə aldığı Acıbadem Xəstəxanasında həyata gözlərini əbədi yumdu. Ötən il 3 dəfə ard-arda əməliyyat olunan Kayahan xərçəng xəstəliyindən uzun illərdi əziyyət çəkirdi. Son günlər daha da zəifləyərək, saçları tökülən ifaçı 23 martda xəstəxanaya yerləşdirilmişdi. Məşhur sənətçi, vəziyyəti pisləşdiyi üçün 25 martda reanimasiyaya köçürülmüşdü.**

Kayahanın ölümüylə əlaqədar müalicə olunduğu xəstəxanadan Türkiyə mətbuatına qısa bir açıqlama verilib. Acıbadem Xəstəxanasından verilən məlumatda Kayahanın ölüm səbəbi açıqlanıb: "Kiçik hüceyrəli ağciyər xərçəngi səbəbiylə bir müddətdir müalicə görən məşhur sənətçi Kayahan, səhər saatlarında həyatını itirdi". 66 yaşlı müğənninin müalicəsini aparan onkologiya mütəxəssisi, professor Gökhan Demir, "Kayahan 1,5 ildir irəli mərhələdə olan kiçik hüceyrəli ağciyər xərçəngi səbəbiylə xəstəxanamızda müalicə görürdü. İlk dövrdə müalicəyə çox yaxşı cavab verməsinə baxmayaraq, son dövrdə müalicəyə qarşı inkişaf edən müqavimət, xəstəliyin yayılması və çoxlu orqan çatışmazlığı səbəbiylə təəssüf ki, onu itirdik" deyib.

### TÜRK MUSİQİSİNİN BÖYÜK İTKİSİ

Mərhum sənətçi bu xəstəliyə tutulduğunu 1990-cı ildə ayağında çıxan yaraya baxdırmaq üçün getdiyi xəstəxanada öyrənmişdi. O zaman həkimlər Kayahana altı ay ömrü qaldığını söyləsələr də, daha 25 il yaşadı. 2005-ci ildə eyni xəstəlik ikinci dəfə, keçən il isə üçüncü dəfə qayıtdı... Dörd dəfə əməliyyat etdirdikdən sonra radioterapiya müalicəsi nəticəsində sağlamlığına qismən qovuşan Kayahan növbəti əməliyyata hazırlaşırdı... İfaçı hər dəfə əməliyyat olunarkən mətbuat onun səhhətinə geniş yer ayırsa da, o özü tamaşaçıları ilə görüşməyə risk etmirdi, ta ölümünə 1 ay qalmışa qədər...

Kayahan Türkiyə musiqi tarixinə öz adını qızıl hərflərlə yazdırdı. Bir ay öncə Nilüfərlə son dəfə konsert proqramında çıxış edən Kayahanın son sözləri hələ də bir çoxlarının qulağından getməyib: "Mən gedirəm. Bu dünyada olmasam da, mahnılarım yaşayacaq və məni mahnılarımda yaşadacaqsınız. Haqqınızı halal edin". Elə də olacaq. İfa etdiyi mahnıları ilə insanların qəlbinə yol tapan, onların incə tellərinə toxunan müğənni yaddaşlardan silinməyəcək. O, türk musiqisinin əsl simalarından biri, böyük sənətkar idi. Sağlığında öz sənəti ilə öz adını qazanan, heyranlarının ürəyində özünə abidə ucaldan sənətkar. Kayahan cismən bu dünyanı tərk etsə də, onu sevənlərin, musiqisini dinləyənlərin, ona dəyər verənlərin ürəyində hər zaman yaşayacaq və hər zaman xatırlanacaq.

### ŞÖHRƏTİN ZİRVƏSİNDƏ

3 iyun 1991-ci il tarixində çıxardığı "Yemin Ettim" adlı albomu ilə böyük səs-küyə səbəb olan Kayahan, "Yolu sevgidən keçən hər kəslə bir gün bir yerdə buluşuruz" şüarıyla Türkiyə sənət dünyasında daha da məşhurlaşmışdı. Uşaqlar üçün də mahnılar yazan sənətkar, bununla yanaşı, televiziyada uşaq proqramının da sevilən simalarından birinə çevrilmişdi. Çox keçmədən - 1992-ci ilin 30 aprelində "Oda İşıksızım" adlı növbəti albomu işıq üzü gördü. 1993-cü ilin martında "Son Şarkılarım" adı ilə çıxardığı albomda İskender Paydaş, Hakan Kurşun kimi gənc və istedadlı isimlərlə birgə çalışmağa başlayır. "Sarı Şəkərim", "Vazgeçmem", "Aman", "Kardeşiz Sənlə" kimi mahnıların önə çıxdığı bu albom da böyük reytinqlərə səbəb oldu. Ondan iki il sonra, 1995-ci ilin yanvar ayının son günlərində "Mənim Pəncərəmdən" adlı albomunun şüarı "Sevənləri ayırmayın, sevənlər ayrılmayın" oldu. "Allahım, nəydi günahım" mahnısı isə bir çox sənətçi tərəfindən təkrar ifa edilərək böyük müvəffəqiyyət qazandı.



Sevilən ifaçı 1996-cı ilin iyul ayında "Canımın Yarpaqları" adlı albomunu "Allah kimsəni sevgisiz buraxmasın" şüarıyla tamaşaçılarına təqdim etdi. Bir insanın sevgini, eşqi itirdiyi anda hər şeyini itirmiş olacağını ifadə edən Kayahan, "Sevgisiz heç bir şey edilməz. Hər şeyin başı sevgidir" sözləri ilə sevib-sevilənlərin rəğbətini qazandı. Erdal Kızılçay, İskender Paydaş və Tamer Çıray üçlüyünün tənzimləmələrini etdiyi albomda səkkiz hissəyə yer verildi. Bütün albom öz evinin studiyasında low-fi texnologiyası istifadə edilərək hazırlandı. Səkkiz parçanı ard-arda konsert atmosferində ifa etdi və kliplərində konsertlərindən edilən çəkilişlər istifadə olundu.

Kayahan, növbəti i "Əmrin Olur" adlı layihəsi ilə sevənlərinin görüşünə gəldi. 1999-cu ilin aprel ayında doqquzuncu albomu - "Məni Azad Et" musiqi dünyasında yerini aldı. Doqquz mahnının yer aldığı albomda, "Beni Azad Et", "Yenə Şüşə Bitecek", "Hər Yerdə Oxşar" kimi hit parçalar var idi. İlin böyük hissəsini keçirdiyi bağını isə "Göməç" adlı mahnısında notlara tökdü.

26 noyabr 2000 tarixində "Gönül səhifə"si albomu ilə yenidən dillərə düşən Kayahan bu albomunda "Sevdaya Mahsus", "Kağıttan Kayıklarla", "Söz Güzelim" kimi romantik parçaların yanında "Ölmem mi Lazım", "Aman Beni Unutma", "Tek perforasiya Kaval", 17 avqust zəlzələ fəlakəti üçün yazdığı "17 Avqust", qızı Aslı Gönül üçün bəstələdiyi "Ninni" kimi mahnılar da yer aldı. 17 dekabr 2002 tarixində isə "Nə Oldu Can" albomu musiqisevərlərə təqdim olundu. Albomdakı "Nə Oldu Can", "Bir Aşk Hikayesi", "Onsuz Olmuyor" musiqi parçaları uzun müddət dillərdən düşmədi. Satış rekordları qıran bu albomunda Kayahan mərhum həmkarı Barış Manço üçün yazdığı "Bu gün Əslində Bayram" parçası ilə musiqiyə, sənətçilərə sahib çıxmanın əhəmiyyətini bir daha vurğulamış oldu.

Sənətçinin ilk böyük mükafatı 1986-ci ildə qatıldığı beynəlxalq Aralıq Dənizi Musiqi Yarışmasında "Gecələr" adlı mahnısıyla qazandığı "Qızıl Portağal" oldu. 1990-cı ildə "Eurovision" mahnı yarışmasında "Gözlerinin Hapsindeyim" adlı mahnısıyla Türkiyəni təmsil etdi. Son on beş ildə bütün media qurumları tərəfindən hər il bəstəkar, söz yazarı və şərhçi olmaq üzrə "İlin ən yaxşı mahnıları" mükafatlarının hamısına layiq görüldü. 2003-cü ildə Altın Kelebek Onur mükafatı və "Nə Oldu Can" albomunun satış müvəffəqiyyəti üçün Müyap mükafatı aldı. 2005-ci ildə "Kelebeğin Şansı", 2007-ci ildə "Biricigimsin" adlı albomları çıxardı.

Azərbaycanda sevənlərinin yaddaşında daha çox "Səninlə hər şeyə varım ben", "365 gün", "Atın beni denizlere" mahnıları ilə iz buraxan dahi sənətkarın səsini hələ uzun illər eşidəcək, dinləyəcəyik.

### KAYAHANIN İSTƏYİNƏ UYĞUN...

Ölkə daxilində və xaricində bir çox konsertlər verən Kayahan, 1992-ci ildə 29 Oktyabr Respublika Bayramı səbəbiylə Ankara Kızılay Meydanında yüz altmış mini aşan tamaşaçıya verdiyi konsertlə tarixin səhifələrinə öz adını yazdırmağa müvəffəq oldu. Təbiət mövzusundakı həssaslığı ilə də tanınan Kayahan, insanların bu mövzuya olan marağını artırmaq məqsədiylə bir sıra yardım konsertləri verdi, könüllü işlərə qatıldı.

Türkiyə mətbuatında yayılan məlumata görə, mərhum sənətkar bu gün günorta saatlarında dəfn olunacaq. Sənətçinin ailəsi mətbuat vasitəsilə özəl qurumlara və dövlət idarələrinə səslənərək mərhumun cənazəsinə gül dəstələri göndərməmələrini xahiş edib. Onlar təklif ediblər ki, Kayahanın qəbri üzərinə gül göndərmək əvəzinə, Mehmetçik Vəqfinə pul yatırsınlar. Bu isə Kayahanın sağlığında konsertlərindən əldə etdiyi gəlirləri məhz həmin vəqfə yatırması ilə əlaqələndiriblər. Bu təklif mətbuatda böyük müzakirələrə səbəb olub.



Qeyd edək ki, Kayahanın ölüm xəbəri yayıldığı andan etibarən Türkiyə və Azərbaycanda bir sıra tanınmış sənətçilər sosial şəbəkələrdə mərhumun şəklini paylaşaraq onun kimi sənətkarı itirdikləri üçün kədərləndiklərini bildiriblər. Dünən sosial şəbəkələrdə ən çox mahnıları paylaşılaraq dinlənilən, haqqında xoş sözlər söylənilən də Kayahan oldu.

Allah rəhmət eləsin!

**Xəyalə Rəis**